# Şəkillər



## İkinci şəkil:

## İsa İsmayılzadə "Bir saatlıq Bakı"

İsa İsmayılzadənin şəkillərinə baxıram: Bütün şəkillərində İsa iydə çiçəyini qoxulayırmış kimi dayanıb. Bu ətirdən qaşları çatılıb, bir azca üzü qırışıb, çiyinləri yuxarı dartılıb, üzünə nəyəsə cəhd etmək təbəssümü qonub. Elə bil nəfəsini içinə çəkib, eləcə də qalıb. Çəkdirdiyi bütün şəkillərin əsas süjet xətti qoxulanmış iydə çiçəyinin və bir anlıq içinə çəkilmiş nəfəsin üzərindədir.

Cəmi 56 il yaşadı İsa İsmayılzadə. Mənə elə gəlir ki, onun bütün yaradıcılığı bir saata yazılıb. Bir saatlıq şeir.

Baxıram şəkillərə, İsa İsmayılzadə elə bil uzaq Qarayazıdan Bakı-Tiflis qatarı ilə indicə gəlib Bakıya, özü də yuxusuz, yorğun, üşümüş bir halda. Bu vəziyyəti İsanın bütün yaradıcılığına hopub sanki. Bakıda cəmi 29 il yaşayıb (1968-ci ildə Bakıya gəlib, 1997-ci ildə dünyasını dəyişib) amma mənə elə gəlir ki, o, Bakıda cəmi bir saat olub; bir saatlıq Bakı. Özü də əsəbi, üşümüş, tələsik və həm də iydə çiçəyini qoxladığı bir vəziyyətdə.

Çünki İsa İsmayılzadənin şair heyrəti 29 illik Bakı həyatını 1 saata yükləyə bilib. Eyni motivli şeirlər və onun heyrət materialları: gölməçə, lal telefonlar, lal qızlar, tərləmiş kölgə, sərçə, damcı, yağış, işıq, dirək, navalça, küçə ritmləri, şəkil, yağış döngəsi, yağış küçəsi, yağışlı günlər, yağışlı havalar, termos şüşəsi, duzlu kölgə, maqnitofonumun iş günü, şəhərin qan təzyiqi, cilik-cilik, kergadan buldrez, təpəl avtobus, xortumlu trolleybus bütünlüklə hiss-həyəcan, inciklik, dağınıqlıq və bir də geriyə - Qarayazıya qayıtmaq hissi; o qədər sıxdı, o qədər bir anın məhsuludur ki, bunları bir yerə yığsan, ancaq cəmi bir saat eləyə və bir şair ömrü...

Səməd Vurğunun "Mən tələsmirəm" şeiri, xüsusən şeirin başlanğıcındakı misralar yada düşür:

***Dostlar, badələri qaldırın içək,***
***Gecə ulduzludur, hava da sərin.***

Şair əlini süfrədəki badəyə aparır, dodaqlarına qədər qaldırır, ordan da ulduza, gecəyə qədər bir hərəkət mənzərisinin şəklini çəkir. Yəni Səməd Vurğun yerdən ulduza "baş vurur". İndisə İsa İsmayılzadənin ilk illərdə çıxan kitablarının adlarına baxaq: Birinci kitabı "Ulduzların ad günü" (Bakı: Gənclik, 1968, 98 səh.); ikinci kitabı "İşıqlı yarpaqlar" (Bakı: Gənclik, 1972, 72 səh.);



üçüncü kitabı "Torpaq nəğməsi" (Bakı: Gənclik, 1977, 96 səh.) və sair. İsa ulduzlardan, özü də "Ulduzların ad günü"ndən başlayaraq torpağa endi, torpaqda qurtardı. Bəs görəsən İsanı ulduzlardan torpağa endirən nə idi?

***Damcılar göylərdən əlini üzdü,***
***Buludlar***
***özünə boylanmaq üçün -***
***bulanıq güzgütək gölməçələri***
***torpağa düzdü.***

***Yağdı, tala-tala gölməçə yağdı,***
***göylərin dəlisov ilhamı yağdı,***
***sərçələrin soyuq "hamamı" yağdı.***
***Yağış gölməçəsi buludla doldu,***
***Güneşlə,***
***payızla,***
***sükutla doldu.***
*("Yağış gölməçələri")*

İsanı göydən endirən 3-cü kitabı - "Torpaq nəğməsi" aşağıdakı şeirlə açılır:

***Yoldaş Əzizbəyov, gözünüz aydın,***
***Ömrün yüz yaşını başa vurdunuz.***
***Yoldaş Əzizbəyov, gözünüz aydın,***
***Əsrlə yanaşı durur adınız.***
*("Zaman bayraq kimi qaldırdı sizi")*

Və yaxud:

***Sən mənim köksümdə çarpan ürəksən,***
***Mən sənin köksündə - kiçik bir zərrə.***
***Mənə qanad verən odlu diləksən,***
***Adına, özünə Vətən deyirəm,***
***Çölünə, düzünə Vətən deyirəm.***
*("Vətən nəğməsi")*

İsa nə qədər dəyişilmişdi!

Bəs, hanı İsanın heyrəti, təəccübü, tələskənliyi, təngnəfəsliyi? Hanı iydə çiçəyinin qoxusu? Görəsən İsa niyə bu qədər ağıllandı?

İsa İsmayılzadə ömür boyu kənddən şəhərə gələn uşağın təəccübünü yaşadı. Bu təəccübə görə onu "döydülər". İsa tələsiyirdi, dedilər - dayan; təngnəfəsiydi, dedilər - özünü ələ al; qışqırırdı, dedilər - sus; şübhəliydi, dedilər- inan; ümidsiz idi, dedilər - ümidli ol; belə-belə İsanı "Ulduzların ad günü"ndən torpağa endirdilər.

Amma İsa məğlub olmaq istəmirdi. Bir şeirində deyirdi:

***Bilirsiniz nə var,***
***Heç elə düşməz***
***Bu günkü hava.***
***Meridian qəfəsləri,***
***"Hara" deyən,***
***"Olmaz" deyən,***
***"Dayan" deyən qəfəsləri***
***Soyunub gəlin,***